USAID FROM THE AMERICAN PEOPLE

დემოკრატიული მმართველობა
საქართველოში (G3) პროგრამა

international iccc center for civic culture

# 2014-cü il iyunun 15-də yerli *özünüidarəetmə* seçkiləri keçirilir!

Siz Sakrebulo üzvlərini seçirsiniz və ilk dəfə
qamqebelini/meri seçirsiniz



Yerli özünüidarəetmə sizə ən yaxın olan hakimiyyətdir və o, yalnız sizin qarşınızda cavabdehlik daşıyır.

Növbəti 4 il ərzində, siz və sizin tərəfinizdən seçilmiş insanlar, birgə şəkildə mövcud mühiti daha da yaxşılaşdırmalısınız –məhz yerli hakimiyyət sizin kəndin və ya şəhərin problemlərini və ehtiyaclarını mərkəzi hakimiyyətdən daha yaxşı bilir.

Yerli problemləri həll etmək məqsədilə, yerli hakimiyyət yerli büdcəni müəyyənləşdirməli və onu sizin ehtiyaclarınıza uyğun xərcləməlidir. Sakrebulolar və yerli qamqebelilər (merlər) təmin etməlidirlər:

- Ərazinin və yolların abadlığı;
- Küçələrin, parkların, meydanların və digər ictimai yerlərin təmizlənməsi, məişət tullantılarının toplanması və daşınıb aparılması;
- Ərazinin yaşıllaşdırılması, küçələrin işıqlandırılması;
- Su ilə təchizat, suvarma sisteminin inkişaf etdirilməsi;
- Uşaq bağçalarının fəaliyyət göstərməsi;
- Əhaliyə nəqliyyat xidmətinin göstərilməsi ;
- Xarici ticarət və bazarların nizamlanması;
- Tikintiyə icazənin verilməsi;
- Ev heyvanlarının saxlanılması qaydalarının müəyyən edilməsi;
- Məhdud imkanlara malik şəxslər üçün, uşaqlar və ahıllar üçün müvafiq infrastrukturun yaradılması;
- Evsiz-eşiksizlərin sığınacaqla təmin edilməsi;
- Qəbiristanlıqların təşkili və nəzarətdə saxlanılması ;

Həmçinin özünüidarəetmə orqanı aşağıdakı sahələr üzrə silsilə tədbirlər təşkil edə bilər: işlə təmin olunmanın, kənd təsərrüfatı və kənd-təsərrüfat kooperasiyasının dəstəklənməsi, turizm və idmanın inkişaf etdirilməsi, sosial yardım proqramlarının yaradılması, yerli səviyyədə gənclər siyasətinin formalaşdırılması və s.

Özünüidarəetmənin yeni qanunu "Yerli Özünüidarəetmə Məcəlləsi " bir sıra yenilikləri nəzərdə tutur:

- Özünüidarəedən şəhərlərinin sayı 5-dən 12-dək yüksəldi ki (Axalsixe, Ambrolauri, Qori, Zuqdidi, Telavi, Msxeta, Ozurgeti), bununla da şəhər və kənd zonaları bir-birindən ayrıldı;
- Regionlarda dövlət qəyyumları/qubernatorları yanında məsləhət şuraları yaradılır, bura Sakrebulonun sədrləri, onların müavinləri və merlər/qamqebelilər daxil olacaqlar. Şuralar qəyyumlar/qubernatorlarla birgə regionlarda görüləsi sosial və iqtisadi xarakterli proqramları müzakirə edəcək və planlaşdıracaqlar;
- Dövlət qəyyumunun/qubernatorun əvəzinə bələdiyyələr üzərində hüquqi nəzarəti Baş nazir həyata keçirir.

Qeyd edilmiş yeniliklər islahatların hələ başlanğıcıdır. Yaxın dövrdə özünüidarəetmə sisteminin gücləndirilməsi məqsədilə əlavə tədbirlərin keçirilməsi də planlaşdırılır:

- Yeni bələdiyyələrin yaradılması prosesi 2017-ci ilə qədər davam etməlidir və ümumi sosial, iqtisadi və yaxud coğrafi xarakteristikaya malik ərazilərdə hal-hazırda mövcud olandan daha kiçik ölçülü özünüidarəetmə orqanları yaradılmalıdır;
- İctimai qruplar (kəndlərdə, icmalarda, şəhərlərdə) Gürcüstan hökuməti qarşısında, müvafiq əsaslandırma ilə yeni özünüidarəetmə orqanının yaradılması məsələsini qaldırmaq hüququnu aldılar;
- 2014-cü il ərzində Gürcüstan Parlamenti ictimai iştirakçılığın əlavə formaları haqqında qanun qəbul etməlidir ki, buna əsasən də qəsəbələrdə ictimai şuralar yaradılmalıdır, harada ki, sakinlər mövcud yerli məsələlərini müzakirə edəcəklər;

- 2014-cü il sentyabrın 1-ə qədər, Gürcüstan hökuməti gəlir vergisinin dissosiasiyası haqqında qanun layihəsini Parlamentə təqdim etməlidir ki, buna əsasən də özünüidarəetmə orqanlarının şəxsi gəlirləri artacaq;
- 2016-cı il yanvarın 1-ə qədər Gürcüstan hökuməti yerli əhəmiyyətə malik təbii resursların, o cümlədən su və torpaq resurslarının ayrılması haqqında qanun layihəsini hazırlamalı və Parlamentə təqdim etməlidir;
- 2016-cı il yanvarın 1-ə qədər Gürcüstan hökuməti onun əlində mövcud mülkiyyətin siyahıyaalınmasını həyata keçirməli və mülkiyyəti özünüidarəetmə orqanlarına təhvil verməlidir;
- 2014-cü il ərzində Gürcüstan hökuməti qulluqçuların davamlı təhsil sistemi strategiyasını təşkil etməlidir.

**İslahatın uğurlu olması üçün Gürcüstan vətəndaşlarının iştirakı həlledicidir.**

**Özünüidarəetmənin və müvafiq olaraq, bizim ölkənin növbəti inkişafı bizim fəaliyyətimizdən çox asılıdır.**

Gürcüstan qanunvericiliyində ("Yerli Özünüidarəetmə Məcəlləsi") silsilə yeniliklər də var ki, bu da öz növbəsində vətəndaş hüquqlarını artırır:

- Yerli hakimiyyətin icraedici qolunun rəhbəri (şəhərlərdə merlər, vahidlərdə -qamqebelilər) birbaşa, bilavasitə əhali tərəfindən seçiləcək. seçicilərin 50%-i seçki baryerini təşkil edir.
- Siyasi partiyaların gücləndirilməsi məqsədilə seçki baryeri 4%-dək azaldıldı, bu kiçik, müxalif partiyalara qələbə və Sakrebuloya daxil olmaq şansı verir.
- Sakrebuloya üzvlük barəsində namizədliyin irəli sürülməsi hüququ artıq yalnız partiyalara deyil, həmçinin təşəbbüs qruplarına da verilir. Bunun nəticəsində, vətəndaşlar elə şəxslərin namizədliyini irəli sürə bilərlər, hansılar ki, heç bir partiyaya aid deyillər, lakin cəmiyyətdə etibar sahibidirlər.
- Əgər seçilmiş mer/qamqebeli ictimaiyyətin ümidlərini doğrultmasa, seçicilərin 20%-nin və ya Sakrebulo üzvlərinin 50%-nin xahişi ilə, Sakrebulonun 2/3-si onu vəzifəsindən azad edə bilərlər.

Qeyd edilənlərdən əlavə, əvvəllər olduğu kimi, indi də özünüidarəetmədə qeydiyyatda olan vətəndaşların 1%-nin, istəkləri olduğu təqdirdə, özünüidarəetmə orqanlarına xüsusi məsələləri həll etmək məqsədilə petisiya vasitəsilə müraciət etmək hüquqları var. Vətəndaşların həmçinin özünüidarəetmə orqanının fəaliyyəti haqqında tam məlumat almaq, Sakrebulonun iclaslarında iştirak etmək, özünüidarəetmə orqanı nümayəndələri ilə görüşmək və öz fikirlərini və təkliflərini bildirmək hüquqları var. Bələdiyyə qamqebeli/meri və Sakrebulo üzvü heç olmasa ildə bir dəfə vətəndaşlar qarşısında fəaliyyətləri barəsində hesabat verməlidirlər.

**Özünüidarəetmənin reallığa çevrilməsi üçün hər birimizin seçki prosesində fəal iştirakı və öz şəhərinin, kəndinin gələcəyini həll etməsi lazımdır.**

Seçkilərdə iştirak etmək üçün 2014-cü il iyun ayının 15-də saat 08:00-dan 20:00-dək seçki məntəqəsinə gəlməlisiniz.
Şəxsiyyət vəsiqəniz və ya Gürcüstan vətəndaşı pasportunuz mütləq üzərinizdə olsun.

## Seçki məntəqəsində necə davranmalıyıq

**1-ci addım.** Seçki məntəqəsinə daxil olarkən komissiya üzvünə şəxsiyyət vəsiqənizi və ya paspotunuzu təqdim etməlisiniz.

**2-ci addım.** Sonra siz markirovkanın yoxlanılması prosedurundan keçəcəksiniz. Komissiya üzvü ultrabənövşəyi fənərlə markirovkanın olub-olmamasını yoxlayacaq.

**3-ci addım.** Komissiya üzvü sizə hansı qeydiyyat masasına yaxınlaşmağınızı göstərəcək. Siz qeydiyyat masasına yaxınlaşacaqsınız və qeydiyyatçıya şəxsiyyət vəsiqənizi və ya pasportunuzu təqdim edəcəksiniz.

**4-cü addım.** Qeydiyyatçı sizin adınızın siyahıda olması faktını yoxlayacaq və təsdiqlədiyi təqdirdə markirovkanı həyata keçirəcək. Əgər markirovka prosedurundan imtina etsəniz, sizin səsvermədə iştirak etmək hüququnuz olmayacaq.



**5-ci addım.** Siyahıda imza atmaqla bülleteni aldığınızı təsdiqləyəcəksiniz. Qeydiyyatçı bülletenləri sizə bülletenin arxasını imzaladıqdan və müvafiq möhürlə yoxladıqdan sonra təqdim etməlidir.

*Sizə üç növ seçki bülleteni veriləcək: proporsional seçki bülleteni ilə istədiyiniz partiyaya səs verirsiniz; bir majoritar seçki bülleteni ilə istədiyiniz namizədə şəxsə səs verirsiniz, ikinci majoritar seçki bülleteni ilə başçını seçirsiz.*

**6-ci addım.** Gizli səsvermə kabinəsinə yalnız daxil olursuz (bülleteni doldurarkən kabinədə başqa şəxsin olması qadağandır) və bülleteni doldurursuz. Sizin istədiyiniz Sakrebulo üzvlüyünə və başçılığa namizədlərin və partiyanın sıra nömrəsini dairə almalısınız.

Əgər siz seçki bülletenini müstəqil şəkildə doldura bilmirsinizsə, seçki komissiyası üzvü, namizəd, seçki subyekti nümayəndəsi və nəzarətçidən başqa *gizli səsvermə kabinəsində sizə kömək etmək məqsədilə istənilən şəxsi dəvət edə bilərsiniz.*

**7-ci addım.** Siz bülletenləri elə qatlamalısınız ki, kimə səs verdiyiniz görünməsin. Gizli səsvermə kabinəsindən çıxırsınız və qatlanmış bülletenlərlə seçki qutusundan ayrı dayanmış masaya yaxınlaşırsız, buradan xüsusi zərfi götürüb, bülletenləri ora yerləşdirirsiniz.

*Seçki komissiyası üzvünün doldurulmuş seçki bülletenini açmaq və ya başqa şəkildə səsvermənin gizliliyini pozmaq hüququ yoxdur.*

*Əgər sizin seçki bülleteniniz və ya xüsusi zərfiniz korlandısa, bu barədə komissiya sədrinə xəbər verməlisiniz, onun tapşırığı ilə qeydiyyatçı korlanmış bülletenin əvəzinə yenisini verməyə borcludur.*

**8-ci addım.** Seçki qutusunun yanına gedirsiniz. Komissiya üzvü əlinizdə yalnız bir zərf tutduğunuzdan əmin olduqdan sonra seçki qutusunun kəsiyini açır və siz zərfi seçki qutusuna atırsınız.




**9-cu addım.** Zərfi seçki qutusuna atdıqdan sonra, siz dərhal seçki məntəqəsini tərk edirsiniz.

## Yadınızda saxlayın

Əgər səhhətinizdə mövcud problemlərə görə seçki məntəqəsinə gələ bilmirsinizsə, siz seçkilərdə daşınan qutu vasitəsilə iştirak edə bilərsiniz və bu barədə məntəqə seçki komissiyasına yazılı surətdə və ya telefon vasitəsilə səsvermə günündən heç olmasa 2 gün (13 iyuna qədər) əvvəl müraciət etməlisiniz. Bu təqdirdə sizin öz evinizdə səs vermək imkanınız olacaqdır.

© "Vətəndaş Mədəniyyətinin Beynəlxalq Mərkəzi"
32 294 02 96
office@iccc.org.ge
www.archevnebi.ge
www.facebook.com/ivote.ge